# Azərbaycan Fransanın məkrini qlobal miqyasda ifşa etdi



**"Fransanın ölkəmizə qarşı qərəzli addımları bu dövlətin xarici siyasətinin tərkib hissəsinə çevrilib və məqsədli xarakter daşıyır. Bütün bunlar Azərbaycana qarşı aparılan nifrət kampaniyasının davamlı olduğunu göstərir".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, Fransanın ermənipərəst mövqeyini açıq şəkildə ortaya qoyması birinci hal deyil. Vətən müharibəsinin elə ilk günlərində Fransa prezidentinin "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik", - deyə beynəlxalq hüquqazidd olan bəyanatını yaxşı xatırlayırıq. Vətən müharibəsindən artıq üç ildən çox vaxt keçməsinə baxmayaraq, Fransa keçmiş münaqişənin həllində heç vaxt maraqlı olmadığını, özünün əsl ermənipərəst mövqeyini gizlətmədən bu gün də həyasızcasına nümayiş etdirir.

K.Bayramov qeyd edib ki, Fransanın bu mövqeyi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına əngəl törədir, xalqların rifahına və təhlükəsizliyinə xidmət etmir. "Fransanın Azərbaycana qarşı uğursuz həmlələri, regionda möhkəmlənmək cəhdlərinin iflasa uğraması bu ölkənin regiondakı nüfuzuna ciddi zərbə oldu. Dövlət Təhlükəsizlik Xidməti Fransa casus şəbəkəsini zərərsizləşdirməklə, tək Azərbaycanı deyil, region ölkələrini və müəyyən qədər MDB dövlətlərini Parisin çirkin siyasətindən qorudu. İfşa edilən şəbəkə bizim regionda kök salmışdı və onların Azərbaycandakı uzantılarının məhvi Fransa kəşfiyyatına çox böyük zərbə oldu", - deyə o əlavə edib.

Fransanın Azərbaycandakı səfiri Ann Buayonun Xarici İşlər Nazirliyinə çağırılmasının gözlənilən olduğunu deyən deputat xatırladıb ki, səfirliyin iki əməkdaşı diplomatik statuslarına uyğun olmayan fəaliyyətə görə "persona-non-grata" (arzuolunmaz şəxs) elan olunublar. Azərbaycanın Fransanın şər və böhtanlarını, qərəzli addımlarını cavabsız qoymayacağı bəlli idi. Əvvəlcə agentura şəbəkəsinin ifşası, sonra da iki fransız diplomatın arzuolunmaz şəxs elan edilməsi Bakının cavab addımlarıdır. Paris Azərbaycana qarşı yürütdüyü siyasətdə artıq bütün hədləri aşıb. Fransanın bəzi şəhərlərində Azərbaycana aid sözlər silinir, heykəllər götürülür. Özünü demokratiyanın beşiyi, dünya mədəniyyətinin mərkəzi sayan bir dövlət heç bir bəşəri dəyərlərə sığmayan addımlar atır.

Deputat diqqətə çatdırıb ki, Fransa digər regionlardakı itkilərini Qafqazda kompensasiya etmək istəsə də, alınmadı. Bu dövlətin Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qarşı təhdidləri cavabsız qalmadı.

Fransanın hazırda Hindistanla əlbir olub Ermənistanı silahlandırmaqla məşğul olduğunu vurğulayan K.Bayramov bildirib ki, Qafqazı münaqişə ocağına çevirməklə regionda təsirini saxlamaq istəyən Paris Ermənistandakı revanşist qüvvələri qızışdırır: "Onların əsas hədəfi bölgədə gedən proseslərə müdaxilə edərək, öz silah-sursatını, hərbi texnikasını Ermənistana satmaqdır. Hesab edirəm ki, Fransız silahları gələcəkdə bölgənin digər dövlətlərinə qarşı da istifadə oluna bilər. Sülh barədə düşünməyən Ermənistan isə dərk etməlidir ki, nə qədər silah-sursat əldə etsə də, ölkəmizə qarşı heç nə edə bilməyəcək. Bəzi dövlətlərin məğlub Ermənistanı silahlandırıb növbəti müharibəyə sövq etmək cəhdi nəticəsiz olacaq".

K.Bayramov əlavə edib ki, Fransanın siyasi yolla Azərbaycana qarşı istər BMT, istərsə də digər beynəlxalq qurumlar səviyyəsində səsləndirdiyi yanlış iddialarının hər biri iflasa uğrayıb. Tarixən insan hüquqlarını kobud şəkildə pozmaqdan çəkinməyən Fransa siyasətinin hansı mərama xidmət etdiyi gün kimi aydındır. Bütün baş verən neqativ halların aradan qaldırılması üçün Korsikadakı vəziyyətin BMT Təhlükəsizlik Şurasının gündəliyinə salınması da zəruridir.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.-2023.- 30 dekabr (№ 287).- S.12.